# XƏZƏR DƏNIZININ ZOOPLANKTONUNUN VƏ ZOOBENTOSUNUN MÜASIR DURUMU

**Ənvər Cəlilov**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu, anvar.jalilov@mail.ru*

Xəzər dənizi zooplanktonunda 315 növə rast gəlinmişdir: 215 növ Şimali Xəzərin, 196 növ Orta Xəzərin, 180 növ Cənubi Xəzərin payına düşür. Onlardan infuzorların payına Şimali Xəzərdə 73 növ, Orta Xəzərdə 112 növ, Cənubi Xəzərdə isə 108 növ düşür. Zooplanktonda rotatorilər, şaxəbığcıqlı xərçənglər və kürəkayaqlı xərçənglər böyük əhəmiyyət kəsb edirlər. Xəzər zooplanktonunda gəlmə növ olan *Acartia clausi* mühüm rol oynayir və Xəzərin sahil sularında da əhəmiyyətli biokütlə əmələ gətirir. Son illərdə Xəzərə invaziya olunmuş *Mnemiopsis leidyi* zooplanktonun növ və miqdar tərkibində nəzərəçarpan dəyişikliklərə səbəb olmuşdur. Xəzər dənizi zoobentosunda 809 növ sərbəstyaşayan heyvan qeyd olunmuşdur ki, onlardan mikrobentosun payına 502 növ, makrobentosa isə 307 növ düşür. Bentik heyvanlar arasında növlərin sayına görə infuzorlar (305 növ), molyusklar (119 növ), çanaqlı xərçənglər (88 növ) üstünlük təşkil edir. Ekoloji monitorinqlərdə əsasən makrobentik heyvanlar əhəmiyyət kəsb edirlər və Xəzər dənizində mümkün neftlə çirklənmənin indikatorları hesab olunurlar. İndiyə qədər Xəzər dənizi zooplanktonunda 16 gəlmə növ qeyd olunmuşdur. Bağırsaqboşluqlulara (Coelenterata) aid 3 növ – *Blackfordia virginica* Mayer, *Moerisia maeotica* Ostroumov və *Aurelia aurita* (Linnaeus), Daraqlılara (Ctenophora) aid 3 növ – *Mnemiopsis leidyi* Agassiz, *Beroe ovata* Mayer, *Beroe cucumis* Fabricius göstərilmişdir. Şaxəbığlı xərçənglər (Cladocera) 4 növlə təmsil olunmuşlar: *Pleopis polyphemoides* (Leukart), *Podon intermedius* Lilljeborg, *Penilia avirostris* Dana və *Moina mongolica* Daday.

Kürəkayaqlı xərçənglər arasında 6 gəlmə növ vardır: *Acartia clausi* Giesbrext, *A.tonsa, Oithona similis* Claus, *Calanus euxinus* (Hulsemann), *Sagitta setosa* Müller, *Calanipeda aquae dulcis* Kritchagin. Bundan əlavə, Xəzər dənizi zooplanktonunda yanüzən xərçənglərdən (Amphipoda) 2 gəlmə növ qeydə alınmışdır: *İphgenella shablensis* (Carausu), *Corophium orientalis* Stock. Gəlmə bentik heyvanların zooplanktonda yaşayan sürfələrini də bu siyahıya əlavə etmək olar.

Gəlmə bentik heyvanlardan aşağıdakıları qeyd etmək olar: Çoxqıllı qurdlardan (Polychaeta) – *Nereis diversicolor*; Bığayaq xərçənglərdən (Cirripedia) – *Balanus improvisus, B.eburneus*; Onayaqlı xərçənglərdən (Decapoda) – *Palaemon elegans, P.adspersus, Rhitropanopeus harrisii,* Molyusklardan (Mollusca) – *Abra ovata, Dreissena rostriformis bugensis, Mytilaster lineatus, Monodadacna colorata, Lithogliphus natiocoides, Tenella adspersa*; Bryozoa qrupundan – *Conopeum seurati, Lophopodella carteri, Membranipora crustulenta, Bowerbrankia imbricata;* Kamptozoa qrupundan – *Barentsia benedeni.*